**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ BEYNƏLMİLƏL TERMİNLƏRİN İZAHLI LÜĞƏTİ

**BAKI-2022**

**Lüğət Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının (16 noyabr 2022-ci il protokol №9) və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının qərarı ilə çap olunur.**

AMEA Nəsimi adına Dilçilik İnstitutu
tərəfindən maliyyələşdirilir.

**Tərtibçi** **A.A.Hüseynova-Qəhrəmanlı**

**Redaktorlar:** **N.B.Məmmədli**
*filologiya elmləri doktoru, professor*
**S.A.Sadıqova**
*filologiya elmləri doktoru, professor*

**Rəyçilər:** **İ.O.Məmmədli**
*filologiya elmləri doktoru, professor*

**V.A.Abdullayeva-Nəbiyeva**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Hüseynova-Qəhrəmanlı Aytən.**
**Müstəqillik illərində beynəlmiləl terminlərin izahlı lüğəti.**
**Bakı, "Zərdabi Nəşr" MMC, 2022, – 156 səh.**

*Lüğətdə müxtəlif elm sahələrinə (iqtisadiyyat, nanotexnologiya, biotexnologiya, incəsənət, diplomatiya, turizm, İnformasiya telekommunikasiya texnologiyaları, tibb, idman və s.) aid 1700-ə yaxın beynəlmiləl termin və terminoloji birləşmələrin izahı verilmişdir. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur, xüsusilə tələbələr, doktorantlar, elmi işçilər və müxtəlif elm sahələri üzrə çalışan mütəxəssislər üçün faydalı ola bilər.*

A $\frac{4705120994-28}{0103-2022}$

**© AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2022**

## ÖN SÖZ

Müasir dövr üçün səciyyəvi olan qloballaşma və beynəlmiləlləşmə prosesləri yalnız cəmiyyətdə deyil, həm də dildə mühüm dəyişikliklərə səbəb olur. Müxtəlif dillərin qlobal qarşılıqlı əlaqəsi, insan fəaliyyətinin bütün sahələrində beynəlxalq əlaqələrin getdikcə genişlənməsi, ümumi kommunikasiya məkanında İnternet texnologiyalarının yayılması dillərə də təsir etməyə başladı. Dil ünsiyyət vasitəsi kimi ənənəvi olaraq bütövlükdə cəmiyyətdə baş verən proseslərin əsas göstəricilərindən biri hesab olunur, ona görə də ictimai münasibətlərin istənilən transformasiyası, ilk növbədə, dil mühitində özünü göstərir.

Dillərdəki beynəlmiləlləşmə və qloballaşma prosesləri, dövlətlərin və xalqların beynəlxalq cəmiyyətə qoşulması, elmin, texnikanın və eləcə də digər sahələrin qloballaşması və ümumbəşəri xarakteri beynəlmiləl terminoloji fondun formalaşmasına səbəb oldu. Cəmiyyətin bütün sahələrində baş verən genişmiqyaslı dəyişikliklər, elmin yeni sahələrinin, eləcə də yeni istiqamətlərinin yaranması terminoloji bazanın inkişafına təsir göstərməkdədir.

Qərblə yaxınlaşma, elmi, siyasi, mədəni və s. əlaqələrin artması nəticəsində Avropa dillərindən birbaşa keçən terminlərin sayı çoxalmışdır. Son illərdə, xüsusən ingilis dilindən keçən terminlər üstünlük təşkil etməkdədir.

Lüğətdə müxtəlif elm sahələrində işlək olan beynəlmiləl terminlər öz əksini tapır. Müasir dövrdə idman terminologiyasına aerobika, fitnes, ekstremal idman növləri ilə bağlı yeni terminlər daxil olmuşdur. Məsələn, *fankarvinq, helibordinq, kayakinq, veykbordinq, akvaaerobika* və s.

İqtisadiyyat sahəsində sürətlə gedən inkişaf, son on illikdə startap layihələrinin inkişafı, rəqəmsal pulların yaranması, əvvəllər analoqu olmayan texnologiyaların üzə çıxması ilə bağlı yeni termin və anlayışlar terminoloji leksikanın zənginləşməsinə səbəb olur. Məsələn, *mayninq, şillinq, şitkoin, testnet, steykinq, kanvas, kanban, plagin* və s.

Yeni terapevtik kosmetoloji və sağlamlıq prosedurların tətbiqi, intensivliyinə görə dərman preparatlarını üstələyən yeni kosmetik vasitələrin yaranması da dilin terminoloji bazasını zənginləşdirir. Məsələn, *kriosauna, blefroplastika, RF liftinq, botulinoterapiya, dermabraziya, tredliftinq* və s.

İnnovasiya texnologiyalarının inkişafı, İnternetin gündəlik həyatımıza təsiri, məhsul və ya xidməti nümayiş etdirmək üçün reklam və marketinq sahəsi ilə bağlı beynəlmiləl terminlər də terminoloji fonda daxil olur. Məsələn, *basorama, bilbord, BTL, cinql, direkt-marketinq, flayer, hiperlokal marketinq, meqabord* və s.

Xüsusilə son dövrlər altqrup elm sahələrinin texnologiya sahəsi ilə inteqrasiyası fonunda nanotexnologiya, biotexnologiya, neyrotexnologiya sahələrinin formalaşması yeni anlayış və terminlərin yaranmasına səbəb olur. Məsələn, *bioçip, neyroelektronika, bioetika, nanosensor, neyrointerfeys, neyronet, biosensor* və s.

Lüğətdə beynəlmiləl abreviatur terminlər, ikikomponentli və üçkomponentli terminlər də verilmişdir. Məsələn, *responsiv veb-dizayn, RF liftinq, SMS marketinq, konsorsium blokçeyni* və s.

Lüğətin tərtibi zamanı son dövrlərdə nəşr olunmuş müxtəlif sahələrlə bağlı elmi-nəzəri ədəbiyyatlardan, dövri mətbuatdan, elmi-terminoloji lüğət və ensiklopediyalardan istifadə olunmuşdur. Lüğətdə 1700-ə yaxın termin toplanmış, terminlər əlifba sırası ilə verilmiş, hər bir terminin qarşısında izahı və işləndiyi elmi sahələr qeyd olunmuşdur. Bəzi beynəlmiləl terminlərin Azərbaycan dilinin ədəbi dil normalarına müvafiq variantı ilə yanaşı, qarşısında onların mənbə dildə qarşılığı da verilmişdir.

Lüğətdə son dövrdə dilə daxil olan terminlər də öz əksini tapmışdır ki, bu terminlərin orfoqrafiyasında bəzi mübahisə doğuracaq məqamların olmasını istisna etmirik. Bununla bağlı irad və təkliflərinizi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasına və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinə bildirə bilərsiniz.

***Müəllif***

# İxtisarlar

*abr.* – abreviatur
*alm.* – alman
*avia.* – aviasiya
*avtom.* – avtomobil
*astr.* – astronomiya
*biotex.* – biotexnologiya
*biz.* – biznes
*dilç.* – dilçilik
*din.* – dini
*dip.* – diplomatiya
*diyet.* – diyetologiya
*diz.* – dizayn
*eko.* – ekologiya
*elekt.* – elektronika
*ədəb.* – ədəbiyyat
*fiz.* – fizika
*fr.* – fransız
*gen.* – gender
*hav.* – havay
*hüq.* – hüquq
*idm.* – idman
*inc.* – incəsənət
*inf.* – informatika
*ing.* – ingilis
*iqt.* – iqtsadiyyat
*kulin.* – kulinariya
*lat.* – latın
*log.* – logistika
*maliy.* – maliyyə
*mark.* – marketinq
*menec.* – menecment
*mus.* – musiqi
*nanotex.* – nanotexnologiya
*neyrotex.* – neyrotexnologiya
*nəq.* – nəqliyyat
*ped.* – pedaqogika
*poliq.* – poliqrafiya
*polit.* – politologiya
*pol.* – polyak
*proq.* – proqramlaşdırma
*psix.* – psixologiya
*rek.* – reklam
*sansk.* – sanskrit
*sığ.* – sığorta
*sosiol.* – sosiologiya
*suah.* – suahili
*stat.* – statistika
*tex.* – texniki
*texno.* – texnologiya
*telek.* – telekommunikasiya

*isp.* – ispan
*isv.* – isveç
*ital.* – italyan
*jurn.* – jurnalistika
*kinem.* – kinematoqrafiya
*kosmet.* – kosmetologiya
*kripto.* – kriptovalyuta
*təh.* – təhsil
*tib.* – tibb
*tik.* – tikinti
*tur.* – turizm
*yap.* – yapon
*yun.* – yunan

## AZƏRBAYCAN ƏLİFBASI

| | | | | |
|---|---|---|---|---|
| **Aa** | **Bb** | **Cc** | **Çç** | **Dd** |
| **Ee** | **Əə** | **Ff** | **Gg** | **Ğğ** |
| **Hh** | **Xx** | **Iı** | **İi** | **Jj** |
| **Kk** | **Qq** | **Ll** | **Mm** | **Nn** |
| **Oo** | **Öö** | **Pp** | **Rr** | **Ss** |
| **Şş** | **Tt** | **Uu** | **Üü** | **Vv** |
| **Yy** | **Zz** | | | |

## –A–

**ABİLİMPİKS –** (ing. qısaldılmış "*Olympics of Abilities*" – "Bacarıqlar Olimpiadası") Beynəlxalq qeyri-kommersiya hərəkatı. Hərəkatın məqsədi əlilliyi olan insanları dünyada ən yaxşı təcrübələrə və peşə standartlarına uyğunlaşdırmaq, bu şəxslər üçün peşə bacarıqları müsabiqələrini təşkil etmək və keçirmək, onları peşə yönümlü istiqamətləndirmək, işə düzəlmək üçün yardım göstərmək yolu ilə peşə nüfuzunu artırmaq və peşə təhsilini inkişaf etdirməkdir.

**ABYUZ –** (fr. *abuser* < lat. *abusus* – sui-istifadə) *psix.* İnsana qarşı psixoloji, fiziki zorakılıq edərək onu alçaltma, təhqir etmə və ələ salma.

**ACASTER** – (ing. *adjuster* < fr. *ajuster* < lat. *adiuxtare* – yaxınlaşdırmaq) *sığ.* Sığortalının sığorta hadisələri zamanı iddiaları ilə bağlı məsələləri həll etmək üçün sığorta şirkətinin nümayəndəsi olan fiziki və ya hüquqi şəxs.

**ADAPTİV DİZAYN** – *inf.* Müxtəlif veb-brauzerlərin pəncərələrinin və cihaz ekranlarının (planşetlər, fərdi kompüterlər və smartfonlara avtomatik uyğunlaşa bilən) veb-səhifələrinin dizaynı.

**ADDİKSİYA –** (lat. *addictus* – kor-koranə sadiq, aludəçi) *psix.* Müəyyən əşyalara, hərəkətlərə psixoloji asılılıq, həddən artıq aludəçilik. Məsələn, narkotikdən, kompüter oyunlarından və s. güclü asılılıq.

**ADMİN** – *inf.* (lat. *administrator* – idarə edən) Saytın, tətbiqin, kompüterlərin lokal şəbəkəsinin və şirkət daxilində bütün proqram təminatının düzgün işləməsini və təhlükəsizliyini təmin edən mütəxəssis.

**ADSL** – *abr.* (ing. *Asymmetrical Digital Subscriber Line* – Assimetrik rəqəmsal abunəçi xətti) *inf.* Telefon naqillərini yüksək sürətli məlumat ötürmə sisteminə çevirməyə imkan verən texnologiyadır.

**ADVALOR** – *iqt.* (lat. *ad valorem* – dəyərə görə) İdxal olunan malların gömrük dəyərinin faizi kimi müəyyən edilən tarif dərəcəsi.

**ADVERTORİAL –** (ing. *advertisement* – reklam +*editorial* – redaksiya məqaləsi) *jur.* Maarifləndirici və ya məlumat xarakterli məqalə altında gizlənən reklam mesajlarının növü.

**AEROBOKS –** (yun. *aeros* – hava + ing. *box* – qutu, rinq) *idm.* Boks və aerobika elementlərindən ibarət məşq sistemi.

**AEROGEL** – (yun. *aeros* – hava +lat. *gelare* – dondurmaq) *kim.* 1 kq dinamit partlayışına müqavimət göstərə bilən və odsaçanın alovundan qoruya bilən ən yüngül bərk cisimlərdən biri.

**AEROFOBİYA** – (yun. *aeros* – hava + *phobos* – qorxu) *psix.* Təyyarədə uçmaqdan patoloji və irrasional qorxu.

**AFFİLİASİYA** – (lat. *affiliare* – övladlığa götürmək) *iqt.* Şirkətin digər təşkilata qoşulduğu andan etibarən birinci təşkilat üçün "ana" şirkət qismində olması.

**AFFİLİAT** – (lat. *affiliare* – övladlığa götürmək) *mark.* Sayta daxil olanların sayının artması və trafikin cəlb edilməsi üçün müxtəlif mənbələrdə ticarət və ya hər hansı digər platformaya keçidlər yerləşdirməklə satışları artırmağa imkan verən tərəfdaş.

**AFFİLİAT SİSTEM** – *mark.* İstənilən şəxsə şirkətin məhsulunu tövsiyə edərək, cəlb etdiyi şəxslər tərəfindən həyata keçirilən alışlara görə komissiya haqqı almağa imkan verən saytda (onlayn mağaza da daxil olmaqla) avtomatlaşdırılmış tərəfdaşlıq proqramı.

**AFFİNAJ** – (fr. *affinage* – saflaşdırma, təmizləmə) *iqt.* Yüksək əyarlı məhsul əldə etmək üçün metalların (qızıl, platin, gümüş) qatışıqlardan ayrılması prosesi. Məsələn, yerli istehsalın hesablama texnikasının elementlərindən qiymətli metalların çıxarılması ixtisaslaşdırılmış affinaj müəssisələrində həyata keçirilir.

**AFTERŞOK** – (ing. *aftershock* – təkrar təkan) *coğ.* Zəlzələ zamanı güclü təkanlardan sonra yaranan daha kiçik seysmik təkanlar.

**AGAYL** – (lat. *agilis* – çevik, sürətli) *iqt.* Tez-tez kiçik komandalar və böyük təşkilatlar tərəfindən qəbul edilən proqram təminatının inkişafına çevik yanaşma.

**AKİSMET** – (ing. *Akismet*) *inf.* İstifadəçilər tərəfindən yaradılan spam linklərini, spam şərhlərini və digər arzuolunmaz kontenti ələ keçirmək üçün filtr kimi fəaliyyət göstərən, WordPress bloq platformaları üçün geniş istifadə olunan plagin.

**AKKAUNT –** (ing. *account* – hesab) *inf.* Elektron sistemdə qeydiyyatdan keçərkən istifadəçi üçün yaradılan hesab.

**AKKAUNT MENECER** – Reklam agentliyində müştərilərlə işləmək, müştərilərlə danışıqlar aparmaq və ünsiyyət qurmaq üzrə mütəxəssis.

**AKNE** – (yun. *akme* – qızğın çağ) *tib.* Ölü dəri hüceyrələri və kirlə tıxandığı zaman yağ bezlərinin iltihabı nəticəsində yaranan dəri xəstəliyi.
**AKSEPTANT** – (lat. *acceptare* – qəbul etmək) *iqt.* Veksellləri yazan və ödəniş müddəti başa çatan veksellləri ödəməyi öz öhdəsinə götürən şəxs.
**AKSİONİZM** – (lat. *actio* – fəaliyyət) *inc.* Qərbi Avropada yaranmış müasir incəsənət forması. Aksionizm rəssamın öz əsərinin həm subyekti, həm də obyekti olduğu fəaliyyət sənətidir.
**AKTİV MATRİS** – *inf.* Maye kristal displeyin növlərindən biri. Noutbuk ekranlarının hazırlanmasında istifadə edilən aktiv matris.
**AKVAAEROBİKA** – (lat. *aqua* – su + yun. *aeros – hava* + yun. *bios* – həyat) *idm.* Suda bir sıra kardio məşqlərdən ibarət qrup fitnes proqramı. Rəqs hərəkətləri ritmik musiqi sədaları altında suda keçirilir.
**AKVİZİSİYA** – (lat. *acquisitio* – əldə etmə) *iqt.* Rəhbərliyin razılığı ilə yaxud razılığı olmadan kompaniyanın səhmlərinin hamısının alınması yolu ilə ona yiyələnmək.
**AQRESSİV PORTFEL** – *iqt.* Məzənnənin kəskin artması gözlənilən və hüquqi və ya fiziki şəxs tərəfindən alınan qiymətli kağızlar portfeli.
**AQROEKOLOGİYA** – (yun. *agros* – çöl + yun. *oikos* – ev, yaşayış yeri + yun. *logos* – təlim, bilik) *eko.* Kənd təsərrüfatı ehtiyatlarını (torpaqlar, təbii yem sahələri), bioloji müxtəlifliyi və insanların ekoloji yaşayış mühitini və istehsal olunan məhsulları kənd təsərrüfatının çirklənməsindən qorumaqla bitkiçilik və heyvandarlıq məhsulları əldə etmək üçün torpaqlardan kənd təsərrüfatı istifadəsinin mümkünlüyü haqqında elm.
**ALLONJ** – (fr. *allonge* – əlavə etmə, uzanma) *iqt.* Üzərində qeydiyyat aparılan vekselə əlavə edilmiş vərəqə.
**ALPARİ** – (ital. *al pari* – bərabər, bir səviyyədə) *iqt.* Qiymətli kağızların birja məzənnəsinin, yaxud valyutanın bazar məzənnəsinin öz nominal dəyərinə uyğunluğu.
**ALTKOİN** – (ing. *alternative* – alternativ + *coin* – qəpik) *kripto.* Bitkoin istisna olmaqla, bütün kriptovalyutaların adı. İlk altkoinlər 2011-ci ildə yaranıb. Onların məqsədi bitkoinin malik olduğu bütün texniki məhdudiyyətləri aradan qaldırmaq idi.
**AMBİSİYA** – (lat. *ambitio* – dairəvi hərəkət, şöhrətpərəstlik) Yüksək təkəbbür, təşəxxüs, insan iddialarının həddən artıq şişirdilmiş səviyyəsi.

**ANAMORFOZ** – (fr. *anamorphose* < yun. *anamorphosis* – təkrar + obraz, forma) *inc.* Bir təsvir motivinin digərinin üzərinə qoyulması təsiri, onların vizual birləşməsi.

**ANDEQRAUND** – (ing. *underground* – yeraltı) *inc.* Ənənəvi mədəniyyətin məhdudiyyətlərinə və şərtlərinə qarşı çıxan yeraltı mədəniyyət mənasını verən anlayış. Bu istiqamətdə rəssamların sərgiləri çox vaxt salonlarda və ya qalereyalarda deyil, birbaşa yerdə, eləcə də bir sıra ölkələrdə andeqraund adlanan yeraltı keçidlərdə və ya metroda keçirilir.

**ANDERLAYİNQ** – (ing. *underlying* – alt qatda olan) *iqt.* Opsionun əsasını təşkil edən və opsion müqaviləsinin şərtlərinə uyğun olaraq alqı-satqı hüququ olan qiymətli kağız.

**ANDERRAYTER** – (ing. *underwriter – sığortaçı, abunəçi*) *iqt.* Qiymətli kağızların (səhmlərin) bazarda yerləşdirilməsini və satışını öhdəsinə götürən şəxs.

**ANDERRAYTİNQ** – (ing. *underwritering* – abunə, yazılma) *iqt.* 1.Qiymətli kağızların satışının təminatçısı qismində çıxış edən anderrayterlər sindikatı tərəfindən yerləşdirilməsi prosesi. 2.Daşınmaz, eləcə də daşınan əmlakın və kommersiya əməliyyatlarının sığortaya qəbulu.

**ANDRAQOGİKA** – (yun. *aner* – yetkin insan, kişi +yun. *gein* – aparmaq, bələdçilik etmək) Böyüklərin pedaqogikası – böyüklərin təhsil nəzəriyyəsi və təcrübəsi ilə məşğul olan pedaqoji elmlər sistemində bilik sahəsi.

**ANDROİD** – (yun. *andros* – insan, kişi +yun. *eidos* - oxşar, uyğun) *inf.* Linux nüvəsinə əsaslanan mobil telefonlar, planşet kompüterlər və smartbuklar üçün mobil əməliyyat sistemi.

**ANDROSENTRİZM** – (yun. *andros* – insan, kişi +lat.*centrum* – mərkəz) *gen.* Qadınların rolu ilə müqayisədə kişilərin bioloji və ya sosial rolunu şişirtmək tendensiyası.

**ANİMALİST** – (lat. *animal* – heyvan) Əsərlərində, əsasən, heyvanları təsvir edən rəssam və ya heykəltəraş.

**ANİMASİYA** – (fr. animation < lat. *animatus* – canlı, canlandırma) *inf.* Film, televiziya və ya kompüter ekranlarında çəkilmiş kadrları müəyyən sürətlə ardıcıl olaraq dəyişdirməklə hərəkətin süni təsviri. Əgər kino və ya videofilm çəkilərkən fasiləsiz hərəkət ayrı-ayrı kadrlara bölünürsə, o zaman animasiya, əksinə, xüsusi hazırlanmış fərdi kadrlardan fasiləsiz hərəkət effekti yaradır.